**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

_______________

29.06.2022-ci il

## Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Səhiyyə sistemi” işçi qrupunun 2022-ci il üçün Fəaliyyət Planı

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət (son hesabat üzrə) | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal Rəqabətlilik Hesabatı*** | | | | | | | |
| 1. | ***5.01 Sağlam ömür müddəti*** | 73,1 bal, 90-cı yer | Ölüm və əlillik nəzərə alınmaqla, yeni doğulmuş körpənin sağlam vəziyyətdə yaşaması gözlənilən illərin sayı. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | ***1. Reproduktiv sağlamlığın təmin edilməsi:*** | | | |
| | | | | 1.1. Ailə həkimi institutunun yaradılması və ailə həkimlərinin antenatal xidmətə fəal cəlb olunması; | 30.11.2022 | Səhiyyə Nazirliyi (o cümlədən İctimai Səhiyyə və İslahatlar Mərkəzi), İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (o cümlədən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB)) | Q.Haqverdiyev, T.Mirzəbəyli, A.Nəsirov, A.Zeynalova, A.İsrafilov |
| | | | | 1.2. Hamilə və zahı qadınlara, yenidoğulmuşlara, xüsusən azçəkili körpələrə zəruri tibbi xidmət göstərilməsi üçün kadrların inkişaf etdirilməsi, infrastrukturun optimallaşdırılması və tibbi təchizatın gücləndirilməsi; | İl ərzində | | |
| | | | | 1.3. Hamilə qadınların maarifləndirilməsi məqsədilə interaktiv internet səhifələrinin təkmilləşdirilməsi, mobil aplikasiyaların yaradılması, regionlarda maarifləndirmə ilə bağlı daha geniş tədbirlərin həyata keçirilməsi; | 31.10.2022 | | |
| | | | | 1.4. Sosial şəbəkələrdə, eləcə də məktəb və ali təhsil ocaqlarında müvafiq aksiyaların təşkil olunması və görüşlərin keçirilməsi; | Mütəmadi | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 1.5. Fertil yaşlı əhali arasında ailə planlaşdırılması və kontrasepsiya üzrə maarifləndirmə işinin aparılması, KİV-də və sosial şəbəkələrdə müvafiq məlumatların yerləşdirilməsi. | Mütəmadi | | |
| | | | | ***2. Uşaqların sağlam böyüməsinin təmin edilməsi:*** | | | |
| | | | | 2.1. Uşaqlara göstərilən tibbi xidmətlərin əlçatanlığının və keyfiyyətinin yaxşılaşdırılması, o cümlədən uşaqların yoluxucu xəstəliklərə qarşı planlı peyvəndlənməsinin həyata keçirilməsi üçün ixtisaslaşmış tibb mərkəzlərinin və ya tibb bölmələrinin kadr potensialının gücləndirilməsi, infrastrukturun müasirləşdirilməsi və tibbi təchizatın yaxşılaşdırılması; | İl ərzində | Səhiyyə Nazirliyi (o cümlədən İctimai Səhiyyə və İslahatlar Mərkəzi), İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (o cümlədən TƏBİB) | Q.Haqverdiyev, T.Mirzəbəyli, A.Nəsirov, A.Zeynalova, A.İsrafilov |
| | | | | 2.2. Pediatrik reanimasiya xidmətinin təkmilləşdirilməsi, infrastrukturunun qurulması, bu istiqamətdə kadr hazırlığının təkmilləşdirilməsi; | 31.10.2022 | | |
| | | | | 2.3. Rəqəmsal texnologiyalardan (mobil aplikasiyalar, video-zəng və s.) istifadə etməklə uşaqların peyvəndlənməsinə dair valideynlər arasında maarifləndirmə işlərinin görülməsi. | Mütəmadi | | |
| | | | | ***3. Uşaqların sağlam həyat tərzinin və sağlam qidalanmasının təşviqi:*** | | | |
| | | | | 3.1. Uşaqların sağlam böyüməsi üçün həkim və qida mütəxəssislərinin məsləhətləri olan mobil aplikasiyaların və ya müxtəlif interaktiv internet səhifələrinin yaradılması və bu barədə əhalinin məlumatlandırılması; | 31.10.2022 | Səhiyyə Nazirliyi (o cümlədən İctimai Səhiyyə və İslahatlar Mərkəzi), İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (o cümlədən TƏBİB) | Q.Haqverdiyev, T.Mirzəbəyli, A.Nəsirov, A.Zeynalova, A.İsrafilov |
| | | | | 3.2. Məktəblərdə sağlam həyat tərzi və sağlam qidalanmanın təşviqi üzrə kadr potensialının gücləndirilməsi və zəruri infrastrukturun yaradılması; | 15.09.2022 | | |
| | | | | 3.3. Məktəblilər və müəllimlər arasında müvafiq sorğuların aparılması və nəticələri üzrə zəruri tədbirlərin görülməsi, habelə sorğuların nəticələrinin təqdimatı; | 30.09.2022 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 3.4. Məktəblər üçün “Sağlamlığın və sağlam həyat tərzinin əsasları” dərsliyi layihəsinin və müvafiq elektron portalın (internet səhifəsinin) təqdimatı. | 31.08.2022 | | |
| | | | | ***4. Uşaqların psixi sağlamlığının möhkəmləndirilməsi:*** | | | |
| | | | | 4.1. Rəqəmsal texnologiyalardan istifadə etməklə psixoloqların uşaqlarla görüşlərinin keçirilməsi, psixoloji dəstəyə ehtiyacı olan uşaqlar üçün xüsusi müalicə proqramlarının hazırlanması; | 30.11.2022 | Səhiyyə Nazirliyi (o cümlədən İctimai Səhiyyə və İslahatlar Mərkəzi), İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (o cümlədən TƏBİB), Təhsil Nazirliyi | Q.Haqverdiyev, T.Mirzəbəyli, A.Nəsirov, A.Zeynalova, A.İsrafilov |
| | | | | 4.2. Ağır və xroniki psixi pozuntusu olan uşaq və yeniyetmələrin müalicəsi üçün tibbi mərkəzlərin kadr potensialının gücləndirilməsi, psixi sağlamlıq işlərinin təşkili və təkmilləşdirilməsi, infrastruktur imkanlarının genişləndirilməsi və tibbi təchizatın yaxşılaşdırılması; | İl ərzində | | |
| | | | | 4.3. Şagirdlərin psixi sağlamlıq vəziyyətinin qiymətləndirilməsi ilə bağlı şkalaların tətbiqi, sorğuların təşkili. | 31.10.2022 | | |
| | | | | ***5. Tibbi xidmətin keyfiyyətinin və əlçatanlığının artırılması:*** | | | |
| | | | | 5.1. Əhali arasında öz sağlamlığının qorunması, xəstəliklərin erkən əlamətlərinə dair maarifləndirici mobil aplikasiyaların və interaktiv internet səhifələrin yaradılması; | 30.09.2022 | Səhiyyə Nazirliyi (o cümlədən İctimai Səhiyyə və İslahatlar Mərkəzi və Analitik Ekspertiza Mərkəzi), İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (o cümlədən TƏBİB) | Q.Haqverdiyev, T.Mirzəbəyli, A.Nəsirov, A.İsrafilov |
| | | | | 5.2. Klinik protokolların yenilənməsi, xəstəxanalarda, tibb müəssisələrində klinik protokolların tətbiqi üzrə işlərin görülməsi; | İl ərzində | | |
| | | | | 5.3. Qeyri-infeksion xəstəliklərin qarşısının alınması məqsədilə skrininqlər aparılması; | 31.10.2022 | | |
| | | | | 5.4. Tibbi xidmətlərin keyfiyyət standartları sisteminin işlənilib hazırlanması, tibb müəssisələrinin heyəti üçün bilik və bacarıqların artırılması məqsədilə təlimlər keçirilməsi; | 30.11.2022 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 5.5. Ölkədə dərman və tibbi preparatlar istehsalının təşkilinə dəstək verilməsi, onların keyfiyyətinin yoxlanılması və müvafiq qeydiyyat sənədinin təqdim olunması; | Mütəmadi | | |
| | | | | 5.6. İlkin səhiyyə xidməti mərkəzlərinin maddi-texniki bazasının gücləndirilməsi və diaqnostika imkanlarının genişləndirilməsi. | İl ərzində | | |
| | | | | ***6. Vətəndaşların sağlam həyat tərzinin təmin edilməsi:*** | | | |
| | | | | 6.1. Respublikanın ali və orta təhsil müəssisələrində tələbə/şagird və müəllim heyəti üçün sağlam həyat tərzi barədə müxtəlif informativ maarifləndirici resursların (materialların) yaradılması və yayımlanması; | Mütəmadi | Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (TƏBİB), Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | Q.Haqverdiyev, T.Mirzəbəyli, A.Nəsirov, A.Zeynalova, A.İsrafilov |
| | | | | 6.2. Sağlam həyat tərzi və davranış risk amilləri barədə maarifləndirici materialların (videoçarxlar, bukletlər, plakatlar və s.) hazırlanması və aidiyyəti üzrə paylanması, müvafiq mobil tətbiqlərin istifadəyə verilməsi; | | | |
| | | | | 6.3. Əhalinin müxtəlif təbəqələri, o cümlədən işləyən əhali üçün fiziki aktivliyə dair maarifləndirici materialların (bukletlər, plakatlar, kitabçalar, sosial çarxlar və s.) hazırlanması və paylanması (ilkin səhiyyə xidməti göstərən müəssisələr, KİV və sosial şəbəkələr vasitəsilə); | İl ərzində | | |
| | | | | 6.4. Əhalinin yaş kateqoriyaları, sosial-iqtisadi və gender amillərinə uyğun olaraq, sağlam həyat tərzi və davranış risk amilləri ilə bağlı maarifləndirmə işlərinin aparılması, mövcud vəziyyətin müntəzəm monitorinqi və qiymətləndirilməsi. | Mütəmadi | | |
| | | | | ***7. "Sağlamlığı təşviq edən məktəblər" layihəsi çərçivəsində məktəblərdə tibb məntəqələrinin işinin monitorinqi və mövcud xidmətlərin qiymətləndirilməsi.*** | 31.08.2022 | Səhiyyə Nazirliyi (İctimai Səhiyyə və İslahatlar Mərkəzi) | Q.Haqverdiyev |
| | | | | ***8. Əlilliyin müəyyən olunma meyarları ilə bağlı aparılan yeni islahatlar və təkmilləşdirmə üzrə tədbirlərin görülməsi.*** | 30.09.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | S.Qocayev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | ***9. Sosial modelə əsaslanan reabilitasiya sisteminin formalaşdırılması.*** | 30.11.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | S.Qocayev |
| | | | | ***10. Fərdi reabilitasiya proqramının tətbiqi.*** | 30.12.2022 (sonrakı icra davam etdirilməklə) | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | S.Qocayev |
| | | | | ***11. Reabilitasiya infrastrukturuna əlçatanlı-ğın təmin edilməsi.*** | 30.11.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | S.Qocayev |
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| **2.** | **Bütün aidiyyəti indikatorlar** | - | - | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi. | Mütəmadi | İşçi qrupa daxil olan bütün qurumlar | İşçi qrupun bütün üzvləri |
| **3.** | **Bütün aidiyyəti indikatorlar** | - | - | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupları ilə əməkdaşlığın genişləndirilməsi və ölkədəki faktiki göstərici və ya qanunvericilik tələbi barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması. | Mütəmadi | İşçi qrupa daxil olan bütün qurumlar | İşçi qrupun bütün üzvləri |